# رجب والأشهر الحُرم

Azərbaycan dili — اللغة الأذرية

# Rəcəb və haram aylar






## Şeyx Heysəm Sərhan

"Sünnə" tədris mərkəzinin rəhbəri


Tərcümə edən: İlqar Eyvazoğlu


ALSARHAAN.COM MAHADSUNNAH.COM

## Rəcəb ayı hicri tarixinin yeddinci ayıdır, bu da haram aylardan biridir

Uca Allah bu barədə belə buyurub:

قال تعالى: ﴿إِنَّ عِدَّةَ ٱلشُّهُورِ عِندَ ٱللَّهِ ٱثۡنَا عَشَرَ شَهۡرٗا فِي كِتَٰبِ ٱللَّهِ يَوۡمَ خَلَقَ ٱلسَّمَٰوَٰتِ وَٱلۡأَرۡضَ مِنۡهَآ أَرۡبَعَةٌ حُرُمٞۚ ٣٦﴾ [التَّوۡبَة : ٣٦]

**“Həqiqətən, Allah yanında ayların sayı on ikidir. (Bunu ) da Allah göyləri və yeri yaratdığı gündə Kitaba yazmışdır. Bunlardan dördü haram aylardır.”**
(Tovbə surəsi, 36-cı ayə)

Bu da, iki xeyir və bərəkət aylarının, Şaban və Ramazan ayının açarıdır. Rəcəb ayı İslamdan əvvəlki dövrdə ərəblər üçün ən müqəddəs aylardan biri olmuşdur.

Rəcəb adı “tərcib” sözündən götürülüb, yəni əzəmətləşdirmək. Çünki ərəblər ona təzim edib uca tuturdular. Elə bu səbəbdən onun şərəf və ehtiramına görə bu ayda döyüşü tərk edirdilər.

Bəzi alimlər buyurublar ki: İslamdan əvvəlki dövrdə ərəblər üçün Rəcəb ayının on dörddən çox adı var idi. Bunlardan:

- (Əsam) Kar.  Bu ayda Silahların tıqqıltısı belə eşidilmədiyi üçün belə ad verilib.

-(Əsab) Gənc oğlan. Bu ayda rəhmətin bol olub yeniləndiyinə görə belə ad verilib.

-(Hərim) Yaşlı. Onun müqəddəsliyi qədim olduğuna görə belə ad verilib.

-(Muqim) Sakin. Onun müqəddəsliyi sabit olduğu üçün belə ad verilib.

"Bir şeyin adlarının çoxluğu onun əzəmətli olmasına dəlalət edir." (Lətaiful Məərif libni Racəb /117)

İslamda isə Rəcəb ayı digər haram aylardan daha fəzilət və nüfuza malikdir. Lakin o, başqa aylardan əlavə xüsusi bir ibadətə xas deyil. Necə ki, Allah Rəsulundan ﷺ bu barədə heç bir şey varid olunmayıb.

İbn Teymiyyə (Allah ona rəhmət eləsin) buyurub:
"Rəcəb ayının, onunla bağlı fəzilətləri və ya o ayda orucun və ya bir hissəsini oruc tutmağın fəziləti və ya o ayda rəğaib namazı kimi xüsusi fəzilətlər haqqında rəvayət edilən hədislərin hamısı uydurma yalandır." (Minhəcus Sunnə ən Nəbəviyyə -7/433)

İbn Qeyyim (Allah ona rəhmət eləsin) buyurub:
"Rəcəb ayında oruc tutmaq və bu ayın bəzi gecələrində namaz qılmaqdan bəhs edən hər bir hədis uydurma və iftiradır." (Mənərul Munif -1/96)

Ona görə də bu ayda insanların çoxunun düşdüyü bəzi bidətlərdən çəkinmək lazımdır, bunlar:

- Rəğaib və əlfiyyə kimi bəzi namaz növlərini bu ay üçün xüsusiləşdirmək.

- Malın zəkatını bu ayda çıxarmağı xüsusiləşdirmək.

- Bu ayın bütün və ya bəzi günlərini oruc tutmaq üçün xüsusiləşdirmək.

-Yaxud onun iyirmi yeddinci gecəsini “isra və merac” gecəsi olduğunu iddia edərək ibadətə və ya şənliyə həsr etmək.

Oruc tutmaq, namaz qılmaq və ümrə etmək kimi başqa vaxtlarda etdiyi əməlləri, Rəcəb ayında çox etməsində problem yoxdur. Sadəcə onda çoxlu fəzilətin olduğuna inanmamalı, bunu ramazana hazırlıq olaraq etməlidir.

**Rəcəb külək, Şaban bulud, Ramazan isə yağış kimidir.**
**Rəcəb ayında əkməyən, Şaban ayında suvarmayan, Ramazan ayında necə biçim edib yığsın?!**